DOI: https://doi.org/10.36719/2706-6185/51/7-12

**Elnarə Rəhimli**
AMEA, Fəlsəfə və Sosiologiya İnstitutu
doktorant
https://orcid.org/0009-0001-4928-3326
h_elnara@yahoo.com

# Etnodini münaqişələrin konseptual əsasları, mahiyyəti və təzahür formaları

## Xülasə

Etnodini münaqişələr etnik və dini qruplar arasında yaranan gərginlik və qarşıdurmaları əks etdirir. Bu münaqişələrin yaranmasına səbəb, etnik və dini fərqliliklərlə yanaşı, həm də siyasi, sosial-iqtisadi problemlərdir. Bəzi dövlətlərdə etnodini münaqişələr dövlət quruluşunun zəifləməsi, sosial ədalətsizlik və resursların bərabər paylanmamasından qaynaqlanır. Qloballaşan və informasiya-kommunikasiya texnologiyalarının inkişaf etdiyi müasir dünyada bu münaqişələr sürətlə yayılsa da beynəlxalq hüquq prinsiplərini rəhbər tutmaqla, insan hüquqlarının təmin edilməsi mexanizmlərini səmərəli həyata keçirməklə onların qarşısını almaq mümkündür. Eyni zamanda bu münaqişələrin həllində dialoq, mədəni tolerantlıq və inklüziv siyasətin həyata keçirilməsi mühüm əhəmiyyət daşıyır. Bu məqalədə etnodini konfliktlərin müxtəlif kateqoriyaları və nəzəri əsasları, onlara təsir edən siyasi, tarixi, sosial və mədəni faktorlar hərtərəfli təhlil edilmişdir. Zorakı və qeyri-zorakı etnik-dini münaqişələrin əsas fərqləndirici xüsusiyyətlərinin müəyyənləşdirilməsinə xüsusi diqqət yetirilmişdir. Bu cür münaqişələrin səbəbləri və təzahür formaları ilə bağlı elmi əsaslandırılmış izahatlar verilmişdir. Araşdırmalar göstərir ki, etnik və dini ziddiyyətlərlə yanaşı bu münaqişələrin müəyyənedici amilləri arasında sosial-iqtisadi bərabərsizlik, siyasi təmsilçiliyin olmaması, mədəni kimlik böhranı da var.

***Açar sözlər:*** *etnodini münaqişə, din, etnik kimlik, cəmiyyət, terrorizm, nəzəriyyə*

**Elnara Rahimli**
Institute of Philosophy and Sociology of ANAS
PhD student
https://orcid.org/0009-0001-4928-3326
h_elnara@yahoo.com

# Conceptual Bases, Essence and Forms of Manifestation of Ethnoreligious Conflicts

## Abstract

Ethnoreligious conflicts reflect tensions and confrontations between ethnic and religious groups. These conflicts are caused not only by ethnic and religious differences, but also by political and socio-economic problems. In some countries, ethno-religious conflicts stem from the weakening of state structures, social injustice, and unequal distribution of resources. Although these conflicts are spreading rapidly in the modern world of globalization and the development of information and communication technologies, they can be prevented by following the principles of international law and effectively implementing mechanisms to ensure human rights. At the same time, dialogue, cultural tolerance and the implementation of an inclusive policy are of great importance in resolving these conflicts. This article provides a comprehensive analysis of the various categories and theoretical foundations of ethnoreligious conflicts, along with the political, historical, social, and cultural factors that influence them. Particular emphasis is placed on identifying the key distinguishing features of violent and non-violent ethnoreligious conflicts. The research reveals that,

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

in addition to ethnic and religious contradictions, the determinants of these conflicts include socio-economic inequality, lack of political representation, and the crisis of cultural identity.

***Keywords:*** *ethnoreligious conflict, religion, ethnic identity, society, terrorism, theory*

## Giriş

Etnodini konfliktlər etnik və dini kimliklərin kəsişməsi nəticəsində meydana çıxan sosial-siyasi qarşıdurmalar formasında özünü göstərir və müasir beynəlxalq münasibətlərin ən aktual və mürəkkəb problemlərindən biri kimi çıxış edir. Etnodini münaqişələrin mahiyyəti onların yalnız etnik və ya dini fərqlərdən irəli gəlməməsi, həm də kimliklərin qarşılıqlı təsiri nəticəsində meydana gələn mürəkkəb qarşıdurmalar sistemini əhatə etməsidir.

Etnik münaqişə beynəlxalq sülh və təhlükəsizliyə əsas təhdidlərdən biridir. Balkanlar, Ruanda, Çeçenistan, İraq, İndoneziya, Şri-Lanka, Hindistan və Darfurda, eləcə də İsrail, İordan çayının qərb sahili və Qəzza zolağında baş verən münaqişələr XX əsrin sonu–XXI əsrin əvvəllərinin ən mühüm və destruktiv nümunələrindəndir. Etnik münaqişələr çox vaxt soyqırım və bəşəriyyətə qarşı cinayətlər kimi insan hüquqlarının kobud şəkildə pozulması, iqtisadi tənəzzül, dövlətin uğursuzluğu, ekoloji problemlər və qaçqın axını ilə müşayiət olunur (Reuter, n.d.).

Etnodini münaqişələrin müasir dünyada getdikcə daha da aktuallaşması, çoxşaxəli xarakteri və onların insan hüquqları, beynəlxalq təhlükəsizlik, sülh və sabitliyə təsiri bu tədqiqatın zəruriliyini və əhəmiyyətini göstərir. Tədqiqat eyni zamanda etnodini münaqişələrin səbəblərini anlamaq və onların qarşısını almaq üçün mühüm əhəmiyyət daşıyır.

**Tədqiqat**

Etnodini münaqişələr tarix boyu dövlət və cəmiyyətlərin qarşılaşdığı mühüm və mürəkkəb problemlərdən biridir. Bu münaqişələrin səbəbləri və təzahür formaları müasir qlobal dünyada daha da aktuallaşır.

"Etnik" və "etniklik" terminləri yunan mənşəli "ethnos" sözündən götürülüb, ortaq mənşəyə malik bir icmanı təsvir edir. Etnik münaqişələrə dair tədqiqatlarda "etnik qrup", "icma qrupu", "etnik icma", "xalq" və "azlıq" kimi terminlər çox vaxt bir-birinin yerinə istifadə olunur. Etnik qrupları müəyyənləşdirmək üçün iki əsas amil mövcuddur: birincisi mədəni xüsusiyyətlər, ikincisi isə bu xüsusiyyətlərin cəmiyyətdə həmin qrupdan fərqlənməsi. Etnik kimlik və millətçilik nəzəriyyələri sahəsində məşhur alim Antoni Smit etnik kimliyin yaranmasına dair bir sıra meyarlar müəyyənləşdirmişdir. Etnik kimliyin üzvləri ortaq tarixi təcrübələri, xatirələri, mifləri və ya mənşəyi, mədəniyyəti, etnik xüsusiyyətləri, habelə qrupun hazırkı mərhələdə yaşadığı və ya yaşamadığı tarixi ərazi və ya vətənlə əlaqəni bölüşür.

Etnik kimlik həm əyani, həm də qeyri-əyani xüsusiyyətlər vasitəsilə formalaşır. Əyani, yəni ortaq mədəni və ya görünən fiziki xüsusiyyətlər önəmlidir, çünki onlar qrupun kimlik hissini, həmrəylik duyğusunu və özünəməxsusluğunu gücləndirir. Nəticə etibarilə qrup həm real, həm də təsəvvür edilən təhlükələri özünün əyani xüsusiyyətlərinə yönəlmiş təhdidlər kimi görür və bunları kimliyinə qarşı risk hesab edir. Əgər qrup bu təhlükələrlə mübarizə aparmaq üçün addımlar atarsa, onun etnikliyi siyasiləşir və ortaq kimliyi sayəsində qrup siyasi aktora çevrilir. Digər tərəfdən, etniklik eyni zamanda qeyri-əyani amillərə əsaslanır – yəni insanların inandıqları və inandırıldıqları məqamlar üzərində qurulur ki, bu da konkret etnik qrup üzvləri arasında həmrəylik hissi yaratmaq və qrupdan kənarda qalanları istisna etmək məqsədi daşıyır (Reuter, n.d.).

Tədqiqat göstərir ki, XX əsrin 60-cı illərindən etibarən mütəxəssislər və ekspertlər etnik-milli hərəkatlardan bəhs edirdilər. Müasir mərhələdə isə hər şey dini kimliklə əhatə olunur: Yəhudi-xristian Qərbi, müsəlman və ərəb-müsəlman dünyası, İsrail dövlətinin əbədi paytaxtı elan edilən Qüds, Məkkə, Roma – bunların hamısı sülh və müharibə mənbəyi kimi önə çıxıb, eyni zamanda Moskva, Afina, Belqrad kimi pravoslav kilsəsinin mərkəzi olan yerlər də kommunizmin süqutu ilə bir növ yenidən canlanıb (Korm, 2012, p. 3).

Din və etnik kimlik bir-birini təkrarlayan və tamamlayan faktordur. Din, etnik qrupu müəyyənləşdirən, etnik kimliyi təyin edən və mümkün olan bir çox xüsusiyyətlərdən biridir. Məsələn, amerikalı siyasi alim və sosioloq T.R.Gurr iddia edir ki, etnik qruplar əslində psixoloji icmalardır. Bu

qruplarda olan insanlar eyni mədəni dəyərləri və həyat tərzini paylaşırlar. İnsanların ortaq kimlik formalaşdırmasının bir sıra şərtləri vardır: bunlara ortaq tarixi təcrübə və miflər, dini inanclar, dil, etnik mənsubiyyət, yaşadıqları coğrafi bölgə və bəzi cəmiyyətlərdə rast gəlinən ənənəvi peşələr daxildir. T.Gurr-a görə, dinin etnik kimlik üçün əhəmiyyəti insanların qavrayışına əsaslanır, bu səbəbdən onun rolu zamanla dəyişə bilər (Fox, 2002, pp. 25–26; Gurr, 1993, pp. 89–123).

Amerikan alimi L. Donald Horovits iddia edir ki, insanların kimliyi ilə bağlı sərhədlər zaman keçdikcə dəyişə bilər. Bu dəyişiklik iki proseslə baş verir: biri assimilyasiya, digəri isə fərqləndirmədir. Assimilyasiya o zaman baş verir ki, insanlar daha qarışıq bir cəmiyyətə düşür və kimlikləri sadələşir. Fərqləndirmə isə bənzər insanların olduğu yerdə onların bir-birindən seçilməyə başlamasıdır (Fox, 2002, p. 26; Horowitz, 1985, pp. 64–65).

Praktikada din və etniklik çox vaxt bir-birini tamamlayaraq qarşılıqlı təsirdə olur. Din etnik qrupların milli tələblərini legitimləşdirə, eyni zamanda etnik mənsubiyyət dini ənənələrin və institutların formalaşmasına zəmin yarada bilər. Bununla belə, bütün etnik qruplar dini cəhətdən homojen deyil və bütün dinlər də müəyyən bir etnikliyə tam şəkildə uyğun gəlmir. Məsələn, bir sıra fundamentalist hərəkatlar etniklikl ə üst-üstə düşmür. Qeyd edək ki, fundamentalist hərəkatlar etnik qruplardan tamamilə fərqli deyil. Hər iki qrup siyasətdə oxşar strategiya və taktikalardan – sülh yolu ilə etirazdan tutmuş qanuni fəaliyyətlərə və hətta zorakı üsyana qədər istifadə edir. Həm fundamentalistlərin, həm də etnik qrupların məqsədləri vacib dəyərlərin qorunması ilə bağlıdır. Fundamentalistlər üçün bu dəyərlər dini ənənələr, etnik qruplar üçün isə qrupun maddi və iqtisadi rifahı, siyasi qərarlara təsir göstərmək arzusu və qrupun mədəniyyət, dil, din və özünüidarə vasitəsilə ifadə olunan kimliyinin qorunmasıdır.

Etnik azlıqların və fundamentalistlərin siyasi tələbləri mahiyyətinə görə fərqlənir. Etnik azlıqlar siyasi məqsədlərinə iki əsas yolla nail ola bilərlər: səsvermə və çıxış. Səsvermə qərarların qəbul edilməsində daha çox söz sahibi olmaq deməkdir. Çıxış isə daha radikal yoldur – qrup maraqlarını qorumaq üçün dövlət daxilindən çıxmaqdır. Bu siyasi olaraq tamamilə və ya qismən muxtariyyat şəklində, ya da yeni dövlət qurmaq və ya etnik baxımdan oxşar qonşu dövlətə birləşmək olar.

Bir çox etnik müqavimət hərəkatları eyni zamanda fundamentalist hərəkatlardır. Məsələn, Həmas və İslami Cihad Fələstin fundamentalist hərəkatlarıdır və Fələstin–İsrail münaqişəsində iştirak edirlər (Fox, 2002, p. 27).

Din və etniklik arasında digər əsas fərq üzvlüyün təbiətindədir. Etnikliyi dəyişmək dini inancı dəyişməkdən daha çox çətindir. Çox vaxt etniklik dəri rəngi kimi dəyişməyən xüsusiyyətlərə əsaslanır, amma dini inanc insanın seçimi ilə bağlıdır. Dini inancı dəyişmək sosial nəticələr və ya maneələr yarada bilər, amma adətən identikliyi dəyişməkdən daha mümkün və əlçatandır.

Fundamentalist qruplar çox vaxt siyasətdə aktiv olur, etnik qruplar isə nadir hallarda öz maraqları üçün siyasi fəaliyyət göstərir (Fox, 2002, pp. 28–29).

Müasir siyasi elmlər və sosiologiya sahəsində *etnodini münaqişə* anlayışı sosial identiklərin, yəni etnik və dini kimliklərin birgə təsiri ilə formalaşan çəkişmələr kimi nəzərdən keçirilir. Bu konfliklərdə əsas faktorlardan biri fərqli etnik və dini qrupların öz identikliyini qorumaq, üstünlük qazanmaq və siyasi güc əldə etməsi üçün mübarizə aparmasıdır.

Etnodini münaqişələrin təzahür formaları genişdir: kiçik münaqişələrdən tutmuş, fiziki zorakılıq, etnik təmizləmə və genosid kimi daha ağır faciələrə qədər özünü biruzə verə bilər. Bu konfliktlər siyasi manipulyasiya və ideoloji vasitələrlə daha da qızışdırılır, regional və beynəlxalq səviyyədə müxtəlif maraq qruplarının iştirakı ilə mürəkkəb xarakter alır. Bu baxımdan etnodini konfliktlərin öyrənilməsi nəzəri cəhətlə yanaşı, regional və qlobal siyasətdə sülh və təhlükəsizliyin təmin olunması üçün aktual və zəruridir (Bugakova, 2009).

Müasir dünyada etnodini konfliktlərin müxtəlif tipləri var. Onlardan qeyri-zorakı etnik-dini münaqişələrin tərkib hissəsi olan silahsız, dinc dini qarşıdurmalar hər yerdə, hər saat baş verir və bəzən bu toqquşmalarda iştirak edən insanlar dinlərin münaqişəsinin iştirakçısı olduqlarını dərk etmirlər.

Zorakı olmayan etnik-dini münaqişələrin digər vacib komponenti müxtəlif məzhəblər arasındakı münasibətdir. Bu, xüsusilə yeni kəşf edilmiş torpaqlarda, məsələn, Amerika, Afrikada məsihçilik dövründə və ya məzhəblərin təsir sahələrinin paylanmasında nəzərə çarpır.

Müasir dünyada bir konfessiya daxilində müxtəlif istiqamətlər arasında münasibətlər də qeyri-zorakı etnodini münaqişələr kimi təsnif edilə bilər. Bu tip münaqişələrə xristianlığın əsas qolları: pravoslavlıq, katoliklik və protestantlıq arasında münasibətlər daxildir. İslam dünyanın aparıcı dinlərindən biridir və burada da etnokonfessional ziddiyyətlər mövcuddur. İslamda əsas ziddiyyət şiə müsəlmanları ilə sünni müsəlmanlar arasındakı qarşıdurmadır (Bugakova, 2009).

Müasir etnik-dini konfliktlərin meydana gəlməsini şərtləndirən amillər arasında milli, geomədəni-siyasi, sosial-iqtisadi və dini amilləri ayırmaq olar. Etnik-dini münaqişələrin yaranmasında milli faktor əsas amillərdən biridir. Bu, hər bir fərdin bir qrupa aid olduğunu hiss etməsinə əsaslanır, fərd üçün ən yüksək nailiyyət, yer üzündə ən yaxşı xalq olan etnik qrupa xas olmaqdır. Bunlar etnik qrupun daxili ünsiyyətə qapanmasına, digər etnik qruplarla xarici ünsiyyətdən təcrid olunmasına və sonradan onlarla münaqişələrə gətirib çıxarır.

Sosial-iqtisadi amil müxtəlif etnik qrupları və ya konfessiyaları təmsil edən əhali qruplarının iqtisadi inkişafında fərq olduğu hallarda yaranır. Bu qrupların iqtisadi vəziyyətindəki fərq onların sosial durumunda özünü göstərir. Nəticədə əhali qruplarının bəziləri özünü “ikinci dərəcəli” insanlar kimi hiss edir ki, bu da əhalinin daha inkişaf etmiş hissəsi ilə onların az inkişaf etmiş rəqibləri arasında etnik-dini münaqişəyə səbəb olur.

Etnodini münaqişələrin yaranmasında dini amil xüsusi rol oynayır. Müasir dünyada din fundamentalizmlə əlaqələndirilir və mütəşəkkil dinin müasirliyin yaratdığı ənənəvi cəmiyyətin üzləşdiyi problemlərə reaksiyası kimi çıxış edir. Fundamentalistlər müasir cəmiyyətə qarşı dini mənşəyə qayıtmağı, xalqına, dininə qayğı göstərən bir dini dövlət yaratmağı müdafiə edirlər.

Müasir dünyada etnik-dini münaqişələrin yaranmasının geomədəni-siyasi amili ondan ibarətdir ki, ölkələrin coğrafi mövqeyi dövlətlərin təhlükəsizlik konsepsiyasında aparıcı rol oynamır. Eyni zamanda, etnik qruplar qloballaşma nəticəsində öz mədəni kimliklərini, ayrı-ayrı ölkələrin suverenliyini və müstəqilliyini itirmək təhlükəsi ilə üzləşirlər. Bütün bunlar xalqları hər vasitə ilə öz mədəni, coğrafi və siyasi müstəqilliklərini və bütövlüyünü qoruyub saxlamaq üçün səy göstərməyə sövq edir.

Qloballaşmanın təsiri altında yaradılmış vahid dünya iqtisadi və maliyyə sistemi fundamenttalistlərə və radikallara ondan istifadə edərək terrorçuları və terrorçu hərəkatları dəstəkləmək üçün başqa regionlara və ölkələrə pul köçürməyə imkan verir. Qloballaşma dinə əsaslanan sivilizasiyaları aparıcı oyunçular kimi beynəlxalq arenaya çıxarmışdır. Öz fundamentalistləri və radikalları ilə təmsil olunan bu sivilizasiyalar müasir dünyada əsas terror təhlükəsini təmsil edir (Bugakova, 2009).

Qloballaşmanın inkişafı, dünyada mürəkkəb iqtisadi vəziyyətlə əlaqədar olaraq daha az inkişaf etmiş, iqtisadi cəhətdən geridə qalmış bölgələrin əhalisi daha az sabit qazanc əldə etmək üçün inkişaf etmiş region və dövlətlərə getməyə çalışırlar. Buna görə də bəzi sosial-mədəni normaların digər sosial-mədəni normaların yayılması sahəsinə “müdaxiləsi” nəticəsində tez-tez etnik və ya dini zəmində toqquşmalar baş verir (Bugakova, 2009).

Etnodini münaqişələrlə bağlı müxtəlif nəzəriyyələr mövcuddur ki, onlar bu konfliktlərin səbəblərini özünəməxsus tərzdə izah edirlər. Primordialist yanaşmaya əsasən, etnik və dini kimliklər qədim, dəyişməz və təbiidir. Münaqişələr bu kimliklərin dərin köklərinə bağlıdır. Cəmiyyətdə və akademik araşdırmalarda primordial fərziyyələrə tez-tez rast gəlinsə də, millətçilik və etniklik sahəsində mütəxəssislər tərəfindən primordializm geniş şəkildə rədd edilir, çünki fərdlərin bir neçə etnik kimliyi ola bilər, bu kimliklər dəyişkəndir və sosial olaraq formalaşır (Bayar, 2009, p. 2).

İnstrumental yanaşmaya əsasən, etnik və dini kimliklər siyasi elita və liderlər tərəfindən alət kimi istifadə olunur. Bu yanaşmaya görə liderlər öz maraqlarını təmin etmək üçün etnik və dini qrupları qızışdırır və bu yolla münaqişələrə şərait yaradırlar. Kimliklərdən siyasi güc, resurslar və hakimiyyət uğrunda mübarizədə istifadə edildikdə münaqişələr baş verir (Reuter, n.d.).

Konstruktivist yanaşma belə hesab edir ki, etnik və dini kimliklər sosial konstruksiyadır, zamanla formalaşır və dəyişə bilər. Münaqişələr bu kimliklərin yenidən qurulması və manipulyasiyası nəticəsində yaranır. Zorakı münaqişələr əsasən bərabərsizliyə və narazılıqlara səbəb olan, fərqliliklərin sülh yolu ilə ifadəsinə imkan verməyən sosial və siyasi sistemlərdən qaynaqlanır. Sosial qurumlarda baş verən dəyişikliklər – məsələn, gərginliyin artması və ya zorakı toqquşmalar etnikliyin sosial konstrukt kimi formalaşmasına birbaşa təsir göstərir (Chandra, 2012, pp. 359–386).

Qloballaşma və modernlik yanaşmalarına görə isə münaqişələr modernləşmə, dövlət quruculuğu və qloballaşmanın yaratdığı sosial-iqtisadi narahatlıqlardan qaynaqlanır. Qloballaşma prosesində insanlar, mədəniyyətlər və iqtisadiyyatlar bir-birilə daha çox qarşılıqlı əlaqədə olur və bəzi kimliklərin itirilməsi təhlükəsi artır. Modern dövlətlərin formalaşması və milli identikliklərin yaranması etnik və dini fərqlilikləri də bəzən qızışdırır (Abbas, 2024, p. 22).

Amerikan alimi S.P.Hantinqtonun *Sivilizasiyaların toqquşması* nəzəriyyəsi daha çox qərbmərkəzli yanaşma olub, münaqişələrin əsas səbəblərini dini-mədəni fərqlərdə görürdü. Bu nəzəriyyədə irəli sürülən əsas tezis ondan ibarət idi ki, Soyuq müharibədən sonra ən mühüm münaqişələr ideoloji və iqtisadi əsaslar üzərində deyil, mədəni və sivilizasiya fərqlərindən baş verəcəkdir. S.Hantinqton belə hesab edirdi ki, dini kimlik sivilizasiyanın əsasını təşkil edir və münaqişələrdə qütbləşməni gücləndirir (Hantington, 1996, pp. 60–130).

Etnodini münaqişələr, milli azlıqlar, mədəni və dini identikliklər, terrorizm kimi sahələrdə geniş tətbiq olunan seküritizasiya nəzəriyyəsinə əsasən, etnodini münaqişə müəyyən etnik və dini qrupların təhlükəsizlik diskursunda təhlükə kimi təqdim olunması nəticəsində yaranan qarşıdurmadır. Bir qrupun və ya dövlətin liderləri və digər aktorlar etnodini fərqlilikləri təhlükəsizlik məsələsi kimi təqdim etdikdə, bu fərqliliklər adi siyasi və sosial problemlərdən fərqli olaraq fövqəladə tədbirlər tələb edən təhlükə kimi qəbul olunur. Bu təhlükəsizləşdirmə prosesi qrup arasında qorxu, qütbləşmə və hətta zorakılıq formasında münaqişəni gücləndirir. Bu tip münaqişələrə 1990-cı illərdə Bosniya və Herseqovinada bosniyalılar-müsəlmanlar, serblər-pravoslavlar, xorvatlar-katoliklər arasında, Şri Lankada xristian-müsəlman və hindu icmaları, Orta Şərqdə İsrail–Fələstin münaqişələrini misal göstərmək olar (Roychoudhury, 2016).

1970-ci illərin əvvəllərində ingilis sosial psixoloqu Henri Tajfel və onun həmkarları tərəfindən aparılan, bir sıra araşdırmaların nəticəsində inkişaf edən sosial identiklik nəzəriyyəsinin tezisi isə bundan ibarətdir ki, insanlar özlərini müəyyən qrupun üzvü kimi dərk edirlər və “öz qrup”–“yad qrup” ayrımı edirlər, bununla öz kimliklərini formalaşdırırlar. İnsanlar öz qrupunu digər qruplarla müqayisə etməklə aid olduqları qrupu müsbət göstərməyə çalışır, bu isə qrup fərqliliyini və bəzi hallarda qütbləşməni gücləndirir. Etnik və dini qrup üzvlərinin sosial identikliyi gücləndikcə, qrup üzvləri arasında sərhədlər daha da qabarıqlaşır. Bu da stereotiplərin yaranmasına, qərəz və münaqişəyə gətirib çıxarır (Ellemers, n.d.).

## Nəticə

Tədqiqatdan aydın olur ki, uzunmüddətli etnodini münaqişələrin həllində təhlükəsizlik tədbirlərinin görülməsi vacib olsa da, ictimai dialoq, mədəniyyətlərarası münasibətlərin inkişafı, iqtisadi inteqrasiyanın gücləndirilməsi daha səmərəli nəticələr verir. Dövlət və hökumət qurumları münaqişə riskinin güclü olduğu bölgələrdə yerli qruplar arasında sosial-iqtisadi layihələr həyata keçirmək, etnik və dini icmaların idarəetmədə iştirakını təmin etməklə etnodini münaqişələrin qarşısını ala bilər. Bu prosesdə beynəlxalq təşkilatların üzərinə düşən ən mühüm vəzifələrdən biri potensial münaqişə ocaqlarının xəritələrini yeniləmək və mediator institutunu inkişaf etdirməkdir.

Bu məsələdə media və vətəndaş cəmiyyətinin üzərinə düşən ən mühüm öhdəlik qərəzsiz, balanslı xəbər siyasətini həyata keçirmək, nifrət hissinin qarşısını almaq, mədəniyyətlərarası dialoq platformalarına üstünlük vermək, icmalar arasında birgə sosial və ekoloji layihələr reallaşdırmaqla onları bir araya gətirməkdir.

## Ədəbiyyat


1. Abbas, K. (2024). Ethnic conflicts in a globalized world: Causes, dynamics, and resolution mechanisms. *Multidisciplinary Journal of Future Challenges, 1*(3), 21–31.
2. Bayar, M. (2009). Reconsidering primordialism: An alternative approach to the study of ethnicity. *Ethnic and Racial Studies, 32*(9), 1–20.
3. Bugakova, M. (2009). Etnoreligioznyj konflikt: nekotorye aspekty problemy. *CyberLeninka.ru*. https://cyberleninka.ru/article/n/etnoreligioznyy-konflikt-nekotorye-aspekty-problemy/viewer
4. Chandra, K. (2012). *Constructivist theories of ethnic politics* (1st ed.). Oxford University Press.

5. Ellemers, N. (n.d.). Social identity theory. *Britannica.com*. https://www.britannica.com/topic/social-identity-theory
6. Fox, J. (2002). *Ethnoreligious conflict in the late twentieth century: A general theory*. Lexington Books.
7. Gurr, T. (1993). *Minorities at risk: A global view of ethnopolitical conflict*. United States Institute of Peace.
8. Hantington, S. (1996). *The clash of civilizations and the remarking of world order*. Simon & Schuster.
9. Horowitz, D. (1985). *Ethnic groups in conflict*. University of California Press.
10. Korm, Z. (2012). *Religioznyj vopros v XXI veke: Geopolitika i krizis postmoderna*. Institut obshchegumanitarnyh issledovanij.
11. Reuter, T. K. (n.d.). Ethnic conflict. *Britannica.com*. https://www.britannica.com/topic/ethnic-conflict#ref1226118
12. Roychoudhury, S. (2016). Securitization theory and internal ethnic conflicts: Interrogating select cases from India and Sri Lanka. *Isanet.org*. http://web.isanet.org/Web/Conferences/AP%20Hong%20Kong%202016/Archive/4c5d66d5-e0e2-463b-b74f-c1c9e7261440.pdf

Daxil oldu: 27.06.2025
Qəbul edildi: 04.09.2025